**50 müəssisə nümayəndəsi arasında Azərbaycanda inhisarçılıqla əlaqədar keçirilmiş müsahibənin nəticələri üzrə**

**HESABAT**

**31 avqust – 21 sentyabr 2020-ci il**

**Bakı şəhəri**

# XÜLASƏ


Bakı şəhərində 50 (əlli) müəssisə nümayəndəsi arasında Azərbaycanda inhisarçılıqla əlaqədar dərin müsahibə 31 avqust – 21 sentyabr 2020-ci il tarixində həyata keçirilmişdir. Respondentlər təsadüfi seçim vasitəsilə seçilmiş və müxtəlif sahələri əhatə edir. Ümumilikdə 138 müəssisəyə müraciət olunmuş və onlardan yalnız 50 müəssisənin nümayəndəsi müsahibədə iştirak etməyə razılıq vermişdir.

Müsahibə qabaqcadan hazırlanmış və layihənin icra qrupu tərəfindən təsdiqlənmiş müsahibə sualları əsasında həyata keçirilmişdir. Müsahibə sualları Əlavə 1-də öz əksini tapmışdır.

Müsahibənin həyata keçirilməsi, lazımi məlumatların toplanması, müsahibə nəticəsində əldə edilmiş məlumatların qruplaşdırılaraq xüsusi statistik proqram (SPSS) ilə işlənməsi və nəticələrin analizi prosesində yüksəkixtisaslı mütəxəssislər iştirak etmişdir.


# MÜSAHIBƏNİN NƏTİCƏLƏRİ

**1. Siz fəaliyyətiniz müddətində bazarda hər hansı inhisarçılıq halları ilə qarşılaşmısınızmı?**

Sual müsahibədə iştirak etmiş 50 respondent tərəfindən cavablandırılmışdır.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Bəli | 16 | 32,0 |
| Xeyir | 34 | 68,0 |
| Cəmi | 50 | 100,0 |

Müsahibədə iştirak etmiş respondentlərin 68,0%-i və ya 34 respondent bu sualı mənfi cavablandırmışdır. 32,0% və ya 16 respondent müəssisələrinin fəaliyyəti dövründə bu və ya digər formada inhisarçılıqla üzləşdiyini qeyd etmişdir.

**2. Azərbaycanda bir neçə mühüm sektorda inhisarçı mövqeyində olan iri dövlət şirkətləri fəaliyyət göstərir. Məsələn SOCAR, AZƏRBAYCAN DƏMİR YOLLARI, AZƏRSU, AZAL, AZƏRENERJİ, Xəzər Gəmiçiliyi, AZTELEKOM və digər. Sizcə bu inhisarçılıq müvafiq sektorlarda rəqabət mühitinə necə təsir göstərir?**

Sualı respondentlərin hamısı cavablandırmışdır (50 respondent).

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Mənfi təsir göstərir | 21 | 42,0 |
| Təsir göstərmir | 14 | 28,0 |
| Cavab verməkdə çətinlik çəkirəm | 15 | 30,0 |
| Cəmi | 50 | 100,0 |

42,0% və ya 21 respondent inhisarçılığın ümumiyyətlə inkişafın qarşısını aldığını, rəqabət olmayan bazarda inkişaf da olmadığını, istehlakçıların alternativsiz asılı vəziyyətdə qaldığını vurğulamışlar. 30,0% və ya 15 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir. 28,0% və ya 14 respondent bu inhisarçılığın müvafiq sektorlarda rəqabət mühitinə təsir göstərmədiyini qeyd etmişlər. Bu qrupa daxil olan respondentlərin bəzisi müvafiq sektorlarda olan inhisarçılığı təbii inhisarçılıq hesab edirlər. Bir neçə respondent mövcud vəziyyətdə müvafiq dövlət müəssisələrinə alternativ görmür. Belə ki, onların fikrincə müvafiq sektorlar strateji sektor olduğu üçün bu sahələrin məhz dövlət inhisarı olması məqsədəuyğundur və burada rəqabətin olub-olmamağı bir o qədər də vacib deyil. Bir respondent isə mövcud vəziyyətdə (qaçqın amilinin mövcudluğu, əhalinin yaşayış səviyyəsinin bir o qədər də yüksək olmadığı, Azərbaycanın müharibə şəraitində yaşadığını) müvafiq sektorların dövlətin tam inhisarında qalmasını müsbət qiymətləndirmiş və hazırda bu sektorlarda rəqabətdən danışmağına dəymədiyini qeyd etmişdir.

**3. Sizcə inhisarçılıq aradan qaldırılarsa, bu müvafiq sektorun istehlakçılara təklif etdikləri malların/xidmətlərin keyfiyyətinə və qiymətlərinə necə təsir göstərər?**

Sual 50 respondent tərəfindən cavablandırılmışdır.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Dövlətin sərt nəzarəti altında müsbət təsir göstərər | 42 | 84,0 |
| Təsir göstərməz | 2 | 4,0 |
| Daha yaxşı xidmət və uyğun qiymət olar | 1 | 2,0 |
| Hal hazırda inhisarçılıq yoxdur | 1 | 2,0 |
| Cavab verməkdə çətinlik çəkirəm | 4 | 8,0 |
| Cəmi | 50 | 100,0 |

Əvvəlki sualda rəqabət mühiti haqqında fərqli fikirlər söylənsə də, respondentlərin mütləq əksəriyyəti 84,0% və ya 42 respondent inhisarçılıq aradan qaldırıldığı halda bu sektorlara dövlətin sərt nəzarəti olmasının vacib amil olduğunu qeyd etmişlər. Bəzi respondentlər əks halda həmin sektorların yenidən dövlət inhisarına qayıtmasının qaçılmaz olduğunu vurğulamışlar. Eyni zamanda, bir neçə respondent bu sektorlara cəlb ediləcək müəssisələrin müvafiq sektorlarda təcrübəsi olmasını və onların fəaliyyətində şəffaflığın təmin edilməsinin vacibliyini ön plana çəkmişlər.

**4. İnhisarçı mövqeyində olan iri dövlət şirkətlərinin bir qayda olaraq səmərəsiz fəaliyyəti 2020-ci il avqustun 6-da Azərbaycan Respublikası Prezidentinin çıxışında qeyd edilib. Sizin bu məsələyə münasibətiniz necədir?**

Sualın cavablandırılmasında 50 respondent iştirak etmişdir.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Çox yaxşı | 33 | 66,0 |
| Normal | 17 | 34,0 |
| Cəmi | 50 | 100,0 |

Bütün hallarda respondentlər Azərbaycan Prezidentinin çıxışını "Çox yaxşı" və "Normal" qiymətləndirmişlər. Belə ki, bəzi respondentlər həqiqətən də bu sektorların dövlət büdcəsinə gəlir gətirmək əvəzinə, büdcədən böyük subsidiyalar almasını yalnız məhz Prezidentin çıxışından sonra məlumatlandıqları bəlli olmuşdur. Bir qisim respondent bu prosesin vaxtilə Türkiyənin "Barmek" şirkəti ilə başlamasını, lakin sonradan nədənsə dayandırıldığını və yenidən dövlət inhisarına qaytarıldığını anlamadığını qeyd etmişdir.

**5. İnhisarçı olan iri dövlət şirkətlərinin özəlləşdirilməsi məsələsinə münasibətiniz necədir?**

Sual bütün respondentlər tərəfindən cavablandırılmışdır (50 respondent).

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Özəlləşdirilsə yaxşı olar | 30 | 60,0 |
| Dövlətdə qalsa yaxşı olar | 13 | 26,0 |
| Tam özəlləşdirilməsə yaxşı olar | 1 | 2,0 |
| Neft, qaz, işıq, su xaric qalanları özəlləşdirilsə olar | 1 | 2,0 |
| Cavab verməkdə çətinlik çəkirəm | 5 | 10,0 |
| Cəmi | 50 | 100,0 |

Ümumilikdə, respondentlərin əksəriyyəti iri dövlət şirkətlərinin özəlləşdirilməsinə 60,0% və ya 30 respondent müsbət münasibət bildirmişdir. Bununla yanaşı bu şirkətlərin tam özəlləşdirilməməsinin və ya neft, qaz, işıq və sudan başqa digərlərinin özəlləşdirilməsinin tərəfdarı olan respondentlər də var.

**6. Sektorda inhisarçı şirkətin olması digər şirkətlər üçün hansı çətinliklər törədir? Xahiş edirik izah edin:**

Sualın cavablandırılmasında 50 respondent iştirak etmişdir.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Asılılıq | 20 | 40,0 |
| Dövlətin tərəfkeşliyi | 12 | 24,0 |
| Xidmətin aşağı səviyyədə olması | 9 | 18,0 |
| Məhkəmələrin dövlət müəssisələrini dəstəkləməsi | 4 | 8,0 |
| Qiymət rəqabətinin olmamağı | 3 | 6,0 |
| Seçimin olmamağı | 1 | 2,0 |
| Özbaşınalıq | 1 | 2,0 |
| Cəmi | 50 | 100,0 |

Əldə olunmuş cavablar qruplaşdırılmış və aşağıdakı kimi sıralanmışdır:

Asılılıq – 40,0% və ya 20 respondent

Dövlətin tərəfkeşliyi – 24% və ya 12 respondent

Xidmətin aşağı səviyyədə olması – 18,0% və ya 9 respondent

Məhkəmələrin dövlət müəssisələrini dəstəkləməsi – 8,0% və ya 4 respondent

Qiymət rəqabətinin olmamağı – 6,0% və ya 3 respondent

Seçimin olmamağı – 2,0% və ya 1 respondent

Özbaşınalıq – 2,0% və ya 1 respondent

**7. İnhisarçılığın təsirlərinin azaldılması və ya tamamilə aradan qaldırılması üçün hansı təklifləriniz və ya tövsiyələriniz var?**

Sual 50 respondent tərəfindən cavablandırılmışdır.

| | Cavab sayı | Faiz |
|---|---|---|
| Təklif və tövsiyəm yoxdur | 43 | 86,0 |
| Nəzarət gücləndirilsin | 3 | 6,0 |
| Dövlət tərəfindən monitorinqlər artırılsın | 1 | 2,0 |
| Qiymət artımının qarşısı alınsın | 1 | 2,0 |
| Sağlam rəqabət üçün şərait yaradılsın | 1 | 2,0 |
| Şəffaf fəaliyyət təmin olunsun | 1 | 2,0 |
| Cəmi | 50 | 100,0 |

86,0% və ya 43 respondent təklif və tövsiyə bildirməmişdir. 7 respondent aşağıdakı təklif və tövsiyələri səsləndirmişlər:

- Nəzarət gücləndirilsin
- Dövlət tərəfindən monitorinqlər artırılsın
- Qiymət artımının qarşısı alınsın
- Sağlam rəqabət üçün şərait yaradılsın
- Şəffaf fəaliyyət təmin olunsun

# Müsahibə sualları

## 50 müəssisə arasında keçirilən DƏRİN MÜSAHİBƏ sualları

1. Siz fəaliyyətiniz müddətində bazarda hər hansı inhisarçılıq halları ilə qarşılaşmısınızmı?

___________________________________________________________________________
___________________________________________________________________________
___________________________________________________________________________
___

2. Azərbaycanda bir neçə mühüm sektorda inhisarçı mövqeyinda olan iri dövlət şirkətləri fəaliyyət göstərir. Məsələn SOCAR, AZƏRBAYCAN DƏMİR YOLLARI, AZƏRSU, AZAL, AZƏRENERJİ, Xəzər Gəmiçiliyi, AZTELEKOM və digər. Sizcə bu inhisarçılıq müvafiq sektorlarda rəqabət mühitinə necə təsir göstərir?

___________________________________________________________________________
___________________________________________________________________________
___________________________________________________________________________
___

3. Sizcə inhisarçılıq aradan qaldırılarsa, bu müvafiq sektorun istehlakçılara təklif etdikləri malların/xidətlərin keyfiyyətinə və qiymətlərinə necə təsir göstərər?

___________________________________________________________________________
___________________________________________________________________________
___________________________________________________________________________
___

4. İnhisarçı mövqeyində olan iri dövlət şirkətlərinin bir qayda olaraq səmərəsiz fəaliyyəti 2020-ci il avqustun 6-da Azərbaycan Respublikası Prezidentinin çıxışında qeyd edilib. Sizin bu məsələyə münasibətiniz necədir?

___________________________________________________________________________
___________________________________________________________________________

________________________________________

5. İnhisarçı olan iri dövlət şirkətlərinin özəlləşdirilməsi məsələsinə münasibətiniz necədir?

________________________________________
________________________________________
________________________________________

6. Sektorda inhisarçı şirkətin olması digər şirkətlər üçün hansı çətinliklər törədir? Xahiş edirik izah edin:

________________________________________
________________________________________
________________________________________

7. İnhisarçılığın təsirlərinin azaldılması və ya tamamilə aradan qaldırılması üçün hansı təklifləriniz və ya tövsiyələriniz var?

________________________________________
________________________________________
________________________________________